# SEVİMLİ MÜƏLLİMİM

**Günay BAXŞIYEVA**
***Bakı Dövlət Universiteti***
***Kitabxanaşünaslıq kafedrasının magistrantı***

Sevimli müəllimim, böyük hörmət bəslədiyim, şəxsiyyəti ilə fəxr etdiyim əməkdar elm xadimi, professor Abuzər Xələfovu 80 illik yubileyi münasibəti ilə təbrik edirəm. Öz sevimli müəllimim haqqında fikirlərimi paylaşmaq istəyirəm.

Kitabxanaçılıq-informasiya fakültəsinə daxil olduğum gündən Abuzər müəllimin uca şəxsiyyəti, onun fəaliyyəti, elmi yaradıcılığı haqqında çox tez-tez dəyərli sözlər eşidirdim. O vaxt mənə çox maraqlı gəlirdi ki, görəsən niyə hər kəs onun haqqında bele fəxr və hörmət hissi ilə danışır?....

Bakalavr pilləsində oxuyarkən Abuzər müəllim bizə dərs keçmədiyindən onu yaxından tanımaq şərəfinə magistratura pilləsinin 1-ci kursunda oxuyarkən nail oldum. O, bizə ixtisasımızla bağlı dərs deməyə başladı və bu 1 il ərzində ondan çox şey görüb-götürdüm... Abuzər müəllimi tanıdıqca onu daha çox sevməyə başlayırıq. O, yeganə pedaqoqodur ki, hər dəfə onun dərsindən çıxandan sonra öz bazisimizə bizə həyatda zəruri olan lazımi informasiyaların və məlumatların daxil olduğunu hiss edirdik. O, sanki bir xəzinədir. Yəni onun keçdiyi dərslərdən heç vaxt əliboş çıxmırıq. Maraqlısı da ondadır ki, onun dərsində vaxtın necə başlayıb, necə bitdiyini heç hiss etmirdik. Onun özünəməxsus, dərin məna çaları olan çoxlu ibrətamiz sözləri və nəsihətləri vardır. Əslində biz özlüyümüzdə çoxsayda atalar sözləri və aforizmlər bilirik. Maraqlısı da burdadır ki, o kəlamları məhz Abuzər müəllimin dilindən eşitmək insana daha çox təsir edir. Çünki o, həm hər sözün, hər kəlamın məğzini açaraq nəsihət verir, həm də həyatda uca zirvə fəth etmiş, yüksək nüfüz qazanmış Abuzər müəllimin sözünün təsiretmə qüvvəsi özü kimi güclüdür. Onun ən çox yadımda qalan və həyatımda böyük dönüş yaradan bir nəsihəti var. Həmişə deyirki : "Bu dünyada insan mütləq gərək kiməsə inansın, güvənsin, arxalansın. Yoxsa payızda talada tək qalmış ağac kimi vaxtsız tez solub saralar." Abuzər müəllimin bu sözləri sanki məni yuxudan oyatdı. İndiyədək məndə insanlara qarşı inamsızlıq hissi sanki yox oldu.

Başqa qrup yoldaşlarımdan fərqli olaraq, özümü ona görə şanslı hesab edirəm ki, bugün mən həm də Abuzər müəllimin magistrantıyam. Deməli hələ sevimli müəllimimlə çox ünsiyyətdə olacağam, təbii ki ondan öyrənəcəyim çox şeylər vardır.

Hər şeydən öncə o, öz tələbələrini sevən, elə ilk baxışdaca onu anlayan, hər bir tələbəsinə fərdi yanaşıb, onun maraq dünyası, qavrama xüsusiyyətləri-

ni nəzərə alaraq bilik verən qayğıkeş, tələbkar gözəl pedaqoqdur. İlk dəfə bu fakültəyə daxil olarkən ixtisasımıza meylli deyildik. Lakin Abuzər müəllimin sayəsində biz ixtisasımızı sevməyə başladıq. O, ixtisasımıza başqa bir prizmadan yanaşır. Hansı ki, biz heç vaxt bu haqda heç düşünməmişdik də. O, bizi başa saldı ki, bizim peşə şərəfli və çox lazımlı peşədir. Xalqımıza daha çox fayda verə bilərik. İndi mən peşəmi həm sevirəm, həm də qürur duyuram ki, məhz Abuzər müəllimin yaratdığı fakültədə təhsil alıram.

O, sözübütöv, haqqı nahaqqa verməyən, həmişə sözü üzə deyən, sözünün arxasında duran, mənəvi saflığı, əqidə bütövlüyü, bir sözlə bütün müsbət insani keyfiyyətləri özündə cəmləşdirən, təmənna gözləmədən hamıya yaxşılıqlar edən böyük şəxsiyyətdir. Abuzər müəllim həm də çox vətənpərvər insandır. Dünyanın bir çox ölkələrində olan Abuzər müəllim Vətənimizi hər yerdə layiqincə təmsil edib. O, öz fəaliyyəti, elmi araşdırmaları ilə sübuta yetirmişdir ki, qədim mədəniyyətə malik olan Azərbaycan xalqının dünyaya nümunə göstərəcək zəngin kitab və kitabxana tarixi vardır. Kitabxanaçılıq-informasiya fakültəsinin banisi prof. Abuzər Xələfovdur. O, bu fakültənin əsasını qoyub. Öz sözləri ilə desək: "Mənim bütün şüurlu həyatım və fəaliyyətim Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsi ilə bağlı olub. Əgər desəm ki, mən fakültəmizin canlı tarixiyəm, qətiyyən səhv etmərəm."

İndi başa düşürəm ki, niyə hamı Abuzər müəllimə bu qədər dərin hörmət və rəğbət bəsləyir....

Bütün gözəl xüsusiyyətləri özündə cəmləyən belə bir müəllimi olan tələbə əlbəttə ki çox xoşbəxt insandır. Mən həmişə Abuzər müəllimlə qürür və iftixar duyuram, eyni zamanda onunla fəxr edirəm. O, bizim üçün və gələcək nəsillər üçün çox şey edib və etməyə davam edir. Abuzər müəllimə möhkəm cansağlığı, işlərində və elmi fəaliyyətində müvəffəqiyyətlər arzulayıram..

80 yaşınız mübarək, Abuzər müəllim!